**Qətər – 2022**

# Xorvatiya mundialın bürünc mükafatını qazandı

## *Mərakeş isə bu turnirdə gözəl bir tarix yazdı*



**Mərakeş millisi Afrikanın Dünya çempionatının yarımfinalına çıxan ilk yığma komandası oldu. "Atlas şirlərinin" yazmağa başladığı gözəl nağılı "xoruzlar" davam etdirməyə imkan vermədilər. Lakin dünən Valid Reqraqinin kollektivinin Qətərdən medallar aparmaq üçün şansı qalırdı. Bunun üçün komanda üçüncü yer uğrunda keçirilən matçda xorvatlara qalib gəlməli idi.**

Rəqiblər Bakı vaxtı ilə saat 19:00-da Dohadakı "Xəlifə" stadionunda qarşı-qarşıya gəldilər. Ənənəmizə sadiq qalıb matç başlamamışdan hər iki komanda haqqında bəzi qeydlərimizi və oyunun gedişi haqqında bəzi proqnozları futbol azarkeşlərinin diqqətinə çatdırmaq qərarına gəldik.

Afrikalılar həqiqətən turniri möhtəşəm keçirdilər. Doğrudur, üçüncü yer uğrunda matç bu mundialın əsas qarşılaşmasının – Argentina – Fransa oyununun kölgəsində qalır. Lakin bu qarşılaşmaya da böyük maraq var idi. Çünki hər iki komanda bu mundialda nümayiş etdirdikləri xarakterə və yüksək səviyyəli çıxışlarına görə, özlərini dünyada milyonlarla azarkeşə sevdirə biliblər.

Sizə məlum olduğu kimi, planetin ən güclü komandaları ilə qarşılaşmamışdan əvvəl Xorvatiya və Mərakeş artıq çempionatın dördüncü günü qrup mərhələsində üz-üzə gəliblər. Həmin oyun bəlkə də çoxlarınızın diqqətini elə də çəkməyib, çünki "F" kvartetinin çox da güclü sayılmayan sıradan bir oyunu hesab edilirdi. Oyun qolsuz bərabərliklə nəticələnəndə belə, bəlkə də çoxları Mərakeşin bu uğurunu təsadüf hesab etdilər. Hətta afrikalıların Belçika və Xorvatiya kimi komandaların yer aldığı qrupdan çıxmasına belə, az-çox futbol haqqında təsəvvürü olan azarkeş də inana bilməzdi. Amma ABŞ-da bir müəllim bəlkə də yeganə azarkeş olub ki, afrikalıların dörddəbir finala çıxacağına tam əmin olaraq, onların uğuruna bukmeker kontorasında kiçik bir məbləğ yatırıb və nəticədə bir milyon dollar udub.

Doğrudur, həmin qarşılaşmada xorvatlar qələbəyə daha yaxın oldular, hətta bir neçə təhlükəli vəziyyət yarada bildilər. Amma Reqraqinin yetirmələrinin də qol vurmaq şansları az olmadı. Sadəcə, təhlükəli vəziyyətləri nə Xorvatiya, nə də Mərakeş futbolçuları qola çevirə bilmədilər.

Xorvatiyanın qol vuran forvardı Mario Mandjukiçin heyətdə yeri görünürdü. Amma o, bu mundiala məşqçilər heyətində gəldiyi üçün meydana çıxa bilməzdi. Buna baxmayaraq, Zlatko Daliçin kollektivinin mundialda ən yaxşı yarımmüdafiə xətti var idi – Mateo Kovaçiç, Marselo Brozoviç və Luka Modriç. Bu üçlük təkcə topu özündə saxlamaq və hücum qurmaqla yüksək oyun nümayiş etdirmir, həm də müdafiədə əla oynayırdılar. Lakin xorvatları oyunu canlandırmaq üçün yetərincə güclü ehtiyat oyunçuları da yox idi. Komandasını "pley-off"a çıxaran baş məşqçilər arasında yalnız Zlatko Daliç turnirdə ən az oyunçu istifadə edib – cəmi 18 futbolçu. Onlardan yalnız 15 nəfəri start heyətdə meydana buraxılıb. 9 oyunçu isə bütün altı oyunda ilk dəqiqələrdən meydanda olub.

Mərakeşlilər isə Belçika kimi qrup favoritini məğlub edib mundialdan kənarlaşdırdıqdan sonra aydın oldu ki, "atlas şirləri" hətta ən top komandaları belə məğlub etməyə qadirdirlər. Ona görə səkkizdəbir finalda İspaniya ilə qarşılaşma Mərakeş üçün əsas sınaqlardan biri oldu. Afrikalılar bu matçda nəinki turnirin ən təhlükəli komandasını qolsuz saxladılar, hətta özlərini hücumda əla göstərə bildilər. Qolsuz heç-heçədən sonra penallaşmada İspaniya millisinə heç bir şans qoymayan Mərakeşin Portuqaliya üçün də başağrısı olacağı fikirləri səslənməyə başladı. Proqnozlar özünü doğrultdu və Reqraqinin yetirmələri Ronaldonun komandasını da evə 2-0 hesablı məğlubiyyətlə yola saldılar.

Mərakeş millisi sözün əsl mənasında möcüzə nümayiş etdirdi. Xüsusilə müdafiədə Reqraqinin yetirmələri usta səviyyələri ilə heyrətamiz təsir bağışladılar. Komanda lazım gələndə təşəbbüsü ələ almağı, lazım gələndə əla müdafiə olunmağı bacarırdı. Onların bu usta səviyyəsini Belçika və Portuqaliya komandaları bir çox məqamlarda aydın hiss etdilər. Hətta sürətli fransızlar belə yarımfinal matçının əksər vaxtlarında mərakeşlilərin kəskin əks-hücumları qarşısında çətinliklə duruş gətirirdilər.

Əminliklə demək olar ki, Valid Reqraqi 2022-ci il Dünya çempionatının nəticələrinə görə, ən yaxşı məşqçi nominasiyasına əsas iddiaçı hesab edilə bilər. Mütəxəssis taktiki çeviklik göstərməklə yanaşı, Mərakeş komandasının mütəşəkkil oyununu sona qədər davam etdirə bildi. Ona görə də Mərakeşin yarımfinala çıxmasını mütəxəssislər möcüzədən daha çox, məşqçinin komandada gördüyü böyük işin nəticəsi hesab edirlər.



Məhz mərakeşlilərin dünyanın ən yaxşı komandalarına qarşı belə cəsarətli və bir qədər kobud səslənsə də, "həyasız" oyunu şübhəsiz, ürəkləri fəth edib. Bundan sonra onların azarkeşlərinin sayı artıb və indi hətta Dünya çempionatından sonra da adam istəyir ki, bu komandanın oyunlarını diqqətdə saxlasın. Qətərdə isə bu komandanın hələ başa çatdırmadığı bir iş qalmışdı – mundialın bürünc medalını Xorvatiyadan qoparıb Mərakeşə aparmaq.

Xorvatiya isə nahaq yerə bu mundialın ən təcrübəli komandası hesab etmirlər. Qətər çempionatından fərqli olaraq, 2018-ci il mundialında Xorvatiya "pley-off" matçlarının hər birində əlavə taymlar oynayaraq finala çıxdı. Qətərdə isə millinin dörd il yaşlaşmış əsas heyətinin gücü bu turnirdə yalnız yarımfinala qədər bəs etdi. Daliç, şübhəsiz, Mərakeşlə oyunda heyətdə müəyyən əvəzetmələr aparmalı idi.



Etiraf etmək lazımdır ki, komandaların hər ikisi bu matça qədər də bir qədər oxşar üslubda oynayırdılar. Onların mundialda yaxşı nəticə göstərməyinin əsas səbəbi kimi müdafiədə əla oyun nümayiş etdirmələri göstərilir. Fransa ilə yarımfinal oynuna qədər Mərakeş millisinin qapısına beş oyunda heç bir rəqib komanda qol vurmayıb. Bononun qoruduğu qapıya yeganə topu Kanada ilə matçda mərakeşlilər özləri öz qapılarından keçiriblər. Qətərdə keçirilən altı oyunda "atlas şirləri" cəmi 3 top buraxıblar, onun da ikisini yarımfinalda "xoruzlar" vurub.

Xorvatlar da yarımfinalda bildiyiniz kimi qapılarında üç qol gördülər. Argentina millisi problemsiz Zlatko Daliçin komandasını darmadağın etdi. "Albeseleste"ya məğlub olana qədər xorvatlar beş oyunda qapılarından yalnız 3 qol buraxdılar. Onlardan birini dörddəbir finalda Braziliya vurdu. Ümumiyyətlə, qapılardan buraxılan qolların sayına görə, Xorvatiyanın yarımfinala qədər keçirdiyi matçların hər birinə bir top düşür.

Dünən mundialın üçüncü yeri uğrunda keçirilən matç tam fərqli olsa da, gərgin mübarizə vəd edirdi. Mərakeşlilərın heyətlərində ciddi problemlər var idi. Fransa ilə matçın gedişində Reqraqi iki əsas müdafiəçini – Romen Siassı və Nussair Mazruini zədə səbəbindən əvəzləmişdi. Dörddəbir finalda İspaniya millisi ilə qarşılaşmada isə əsas mərkəz müdafiəçisi, Mərakeşin transfer dəyərinə görə ən bahalı oyunçusu Naye Agerd ciddi zədə alıb oyunu tərk etmişdi. Çox güman ki, xorvatlar rəqibin müdafiədəki bu problemlərindən yararlanmağa çalışacaqlar.

Xorvatlar isə bu matça itkisiz çıxdılar. Luka Modriç, Domenik Livakoviç və yalnız Argentina ilə oyunda səfləri dağıdılan müdafiə xətti əla formada idi.

Mundialda üçüncü yer uğrunda matç heç də həmişə maraqlı alınmır. Amma Mərakeş – Xorvatiya qarşılaşması əla alındı. Qətər turniri bunun gözəl nümunəsini göstərdi.

Mərakeşlilər həqiqətən tarixi nailiyyətlərini davam etdirmək üçün meydana çıxmışdılar və nəyin hesabına olur-olsun, bu, bürünc mükafatı qazanmaq istəyirdilər. Lakin bu istəklərinə çata bilməsələr də gözəl və əzmkar oyunları ilə özləri haqqında əla bir təəssürat yaratdılar.

Xorvatlar yeddinci dəqiqədə uzaq məsafədə standart vəziyyəti çox əla yerinə yetirib gözlənilməz erkən qol vurdular. Luka Modriç topun yanından qaçıb keçdi, Lovro Mayer isə cərimə meydançasının sol cinahına əla ötürmə verdi. Orada demək olar ki, mərakeşlilərdən heç kim yox idi və hamı cərimə meydançasının mərkəzində idi. Belə bir ötürməni sanki gözləyirmiş kimi İvan Perişiç başı ilə topu bir qədər arxaya Yoşka Qvardiola ötürdü. Azad zonada topa hətta iki namizəd var idi ki, qarşılarından qapıya maneəsiz traektoriya açılırdı. Gənc müdafiəçi özünü toplayıb topa başı ilə effektli zərbə endirdi. Maskada olan Qvardiolun sıçrayışı estetik baxımdan əla alındı. 1–0 Xorvatiya hesabda irəli çıxdı.

Mərakeşlilər iki dəqiqə keçməmiş hesabı bərabərləşdirdilər. Yeri gəlmişkən, bu topu da standart vəziyyətdən 20 nömrəli oyunçu vurdu. Mayer təsadüfən topu rəqibə atdı və Əşrəf Dari bu hədiyyəni ustalıqla qiymətləndirib komandasının bərabərlik qolunu vurdu.

Xorvatların ikinci, qələbə qolu da bir başqa cür gözəl alındı. Birinci hissənin 42-ci dəqiqəsində hücumu sağ cinahdan sol cinaha keçirən xorvatlar Orişicə ötürmə verdilər. Xorvat elə ilk toxunuşla qövsvari zərbə endirib topu uzaq doqquzluğa göndərdi. Bono topu qapı çatının üstündən aşıra bilmədi. Top içəridən qapı dirəyinə dəyib tora qovuşdu. Birinci hissə 2-1 hesabı ilə başa çatdı.

İkinci hissənin ilk 30 dəqiqəsi demək olar ki, "atlas şirlərinin" aramsız hücumları ilə keçdi. Bir məqamda En Nasiri Livakoviçlə təkbətək çıxdı, lakin mərakeşli hücumçunun zərbəsinə əla reaksiya nümayiş etdirən qolkiper qola imkan vermədi.

Oyuna əlavə edilmiş 6 dəqiqədə də Reqraqinin yetirmələri heç nə edə bilmədilər. Beləliklə, xorvatlar 2-1 hesabı ilə qalib gəlib Dünya çempionatının bürünc medallarına sahib oldular. Bu, Xorvatiyanın son iki Dünya çempionatında ikinci uğurudur. DÇ-2018-də onlar finalda Fransaya məğlub olub gümüş medal qazanmışdılar. Ümumilikdə isə bu xorvatların son 24 ildə müstəqil milli komanda kimi 3-cü uğurudur. Onlar ilk dəfə 1998-ci ildə müstəqil milli komanda kimi mundiala çıxanda turnirin bürünc mükafatını almağa müvəffəq olmuşdular.

İndi Qətər mundialının bir matçı qaldı – Argentina – Fransa.

*İlqar RÜSTƏMOV,*
*"Xalq qəzeti"*